ÇALIŞ ÖZ XALQININ İŞİNƏ YARA

MÜBARİZ

GORANBOY RAYON İCRA HAKİMİYYƏTİNİN ORQANI

• № 1 (4917) • 26 YANVAR 2021-ci il • Qəzet 1932-ci ildən çıxır

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV: Keçən ilin və nəinki keçən ilin, son 30 ilin əsas yekunu torpaqlarımızın işğaldan azad olunmasıdır

Azərbaycan 44 gün ərzində tarixi Qələbə qazanaraq öz torpaqlarını azad etdi, düşmənə sarsıdıcı zərbələr endirdi, Ermənistanı məğlub etdi. Şanlı Qələbəmiz bizim güclü iradəmizi, xalqımızın güclü əzmini bütün dünyaya nümayiş etdirdi, Azərbaycan dövlətinin gücünü nümayiş etdirdi.

Bu sözləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev videoformatda keçirilən 2020-ci ilin yekunlarına həsr olunmuş müşavirə zamanı deyib.

Bu gün müstəqil Azərbaycan dövləti özünün ən şanlı dövrünü yaşayır. Azərbaycan tarixdə heç vaxt bu qədər güclü olmamışdır.

Azərbaycanın dövlətinin gücü yürüdülən siyasət, iqtisadi uğurlar, xalq-iqtidar birliyi, hərbi qüdrəti, regionda oynadığı müsbət roldan qaynaqlanır. Bu Qələbə tarixdə əbədi qalacaq. Bu Qələbə bütün dünyaya sübut etdi ki, Azərbaycan dövlətinin sözü ilə əməli arasında heç bir fərq yoxdur.

Biz tarixi ədaləti bərpa etdik. Biz bütün dünyaya gücümüzü göstərdik. Azərbaycan müharibə aparılmasını tənzimləyən konvensiyalara, beynəlxalq humanitar hüquqa əməl edərək Ermənistan ərazisinə girmədi, dünyaya ədalətli,əxlaqlı orduya malik olduğunu göstərdi.

Sülhməramlı qüvvələrin funksiyası noyabrın 10-da təsbit edildi. Biz bu sülhməramlı qüvvələr qarşısında məsələ qoymuşduq ki, bizim icazəmiz olmadan heç bir xarici vətəndaş Dağlıq Qarabağa gedə bilməz. Sülhməramlıların humanitar işlərlə məşğul olması imzalanmış bəyanatda təsbit edilməsə də, Azərbaycan buna göz yumur. Çünki orada insanlar yaşayır, müəyyən işlər görülməlidir ki, bu qış orada yaşayan ermənilər üçün problem yaratmasın.

2020-ci ilin fevral ayında keçiirlmiş parlament seçkiləri demokratiya istiqamətində atılmış növbəti ciddi addımdır. Parlamentin rəhbər orqanları yeniləndi, rəhbərliyə yeni insanlar gəlib.

Keçən il partiyaların böyük əksəriyyəti bizim təşəbbüsümüzə müsbət cavab verərək siyasi dialoqa qoşuldular. Hazırda bu dialoqda bütün siyasi qüvvələr iştirak edir.

Siyasi dialoqda iştirak etməyən dəstə xain, satqın ünsürlərdən ibarətdir. Təəssüf ki, antimilli qüvvələr öz xain, satqın missiyalarını müharibə dövründə də icra edib, düşmənin dəyirmanına su töküb, ordumuza qarşı çirkin kampaniya aparıb. 1990-cı illərin əvvəllərində yürüdülmüş yanlış siyasət və bu siyasətin fəsadları orta məktəb, ali məktəb dərsliklərinə salınmalı, gənc nəsil Şuşanı, Laçını, Xocalını, Kəlbəcəri satanları, fərarilik edənləri, torpaqlarımızın itirilməsinə imkan yaradanları tanımalıdır.

Kadr islahatları aparılıb. Nazirlər Kabinetində rəhbərlik dəyişdirildi. Prezident Administrasiyasında, nazirliklərdə, yerli icra orqanlarında rəhbərlik dəyişdirildi. Korrupsiyaya və rüşvət-xorluğa qarşı mübarizə daha ciddi aparılmağa başlanmışdır.

Dünya Bankının "Doing Business" proqramında 190 ölkə arasında 28-ci yerdədir, 10 ən islahatçı ölkə sırasındadır.

Azərbaycan yeni ilə digər ölkələrə nisbətən daha az itkilərlə çıxıb, iqtisadiyyatımız təqribən 4 faizdən bir qədər çox azalıb. Şaxələndirmə sayəsində qeyri-neft sənayesi 11 faizdən çox artıb. Kənd təsərrüfatı 2 faiz artıbdır və daha da çox artacaq. Orta əməkhaqqı və orta pensiya təqribən 13-14 faiz artıbdır.

Vətən müharibəsində şəhid olmuş qəhrəman hərbçilərimizin doğmalarına, yaxınlarına evlər veriləcəkdir. Köçkünlər, yəni, keçmiş köçkünlər üçün evlər ancaq azad edilmiş torpaqlarda tikiləcək. Məcburi köçkünlər üçün nəzərdə tutulmuş evlər şəhid ailələrinə veriləcək. Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin balansında olan mənzillər Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin balansına verilir. İkinci Qarabağ müharibəsində şəhid olmuş qəhrəman hərbçilərin yaxınları bu evlərdə yerləşdirilməlidir.

İşğaldan azad olmuş bütün ərazilərin, şəhərlərin bərpası ilə əlaqədar vahid konsepsiya olmalıdır. Hər şəhər üzrə vahid konsepsiya olmalıdır. Azad olunmuş bütün şəhərlərdə memorial komplekslər, Zəfərimizi əks etdirən abidələrlə bərabər, işğal muzeyləri də yaradılmalıdır. Azad edilmiş torpaqlarda əsas fəaliyyət sahələri kənd təsərrüfatı, kənd təsərrüfatı emalı, turizm və dağ-mədən sahələri olacaqdır. Azad edilmiş torpaqların potensialından ərzaq təhlükəsizliyi və ixrac potensialının artırılması üçün istifadə olunacaq. Azad edilmiş torpaqlarda ilkin infrastruktur layihələrinin icrası artıq başlamışdır. Birinci layihə Şuşa şəhərinə yol layihəsidir. Digər vacib layihə çox çətin relyefdən keçən Toğanalı - Kəlbəcər yoludur. İki beynəlxalq aeroport Qarabağ zonasını bərpa etmək, yüklərin daşınması, turizmin inkişafı üçün bizə kömək göstərəcək.

Prezident İlham Əliyev 2021-ci ili "Nizami Gəncəvi ili" elan etmişdir

Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı sərəncamla 2021-ci il "Nizami Gəncəvi ili" elan edilib.

Nazirlər Kabinetinə "Nizami Gəncəvi ili" ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirmək tapşırılıb.

Sərəncamda deyilir ki, dünya ədəbiyyatının görkəmli nümayəndəsi, dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi bəşəriyyətin bədii fikir salnaməsində yeni səhifə açmış nadir şəxsiyyətlərdəndir. Nəhəng sənətkarın xalqımızın mənəviyyatının ayrılmaz hissəsinə çevrilmiş parlaq irsi əsrlərdən bəri Şərqin misilsiz mədəni sərvətlər xəzinəsində özünəməxsus layiqli yerini qoruyub saxlamaqdadır.

Nizami Gəncəvi ömrü boyu dövrün mühüm mədəniyyət mərkəzlərindən olan qədim Azərbaycan şəhəri Gəncədə yaşayıb yaradaraq, Yaxın və Orta Şərq fəlsəfi-ictimai və bədii-estetik düşüncə tarixini zənginləşdirən ecazkar söz sənəti incilərini də məhz burada ərsəyə gətirib. Nizami Gəncəvinin geniş şöhrət tapmış "Xəmsə"si dünya poetik-fəlsəfi fikrinin zirvəsində dayanır. Mütəfəkkir şair çox sayda davamçılarından ibarət böyük bir ədəbi məktəbin bünövrəsini qoyub. Nizaminin ən məşhur kitabxana və muzeyləri bəzəyən əsərləri Şərq miniatür sənətinin inkişafına da təkan verib.

Nizami dühası hər zaman dünya şərqşünaslığının diqqət mərkəzində olub. Ölkəmizdə Nizami sənətinin öyrənilməsi və tanıdılması sahəsində xeyli iş görülüb, əsərlərinin nizami şünaslıqda yüksək qiymətləndirilən elmi-tənqidi mətni hazırlanıb, kitabları nəfis tərtibatda və kütləvi tirajla nəşr edilib. Nizaminin ədəbiyyatda və incəsənətdə yaddaqalan obrazı yaradılıb. Mütəfəkkir şairin doğma şəhəri Gəncədə məqbərəsi, Bakıda, Sankt-Peterburqda və Romada heykəlləri ucaldılıb. Azərbaycan Milli Elmlər Akademiyasının Ədəbiyyat İnstitutu və Milli Azərbaycan Ədəbiyyatı Muzeyi Nizami Gəncəvinin adını daşıyır. Böyük Britaniyanın Oksford Universitetinin Nizami Gəncəvi Mərkəzi uğurla fəaliyyət göstərir.

Nizami Gəncəvinin yubileyləri ölkəmizdə hər zaman təntənə ilə keçirilib. Dahi şairin 800 illik yubileyi onun irsinin tədqiqi və təbliğində əsaslı dönüş yaradıb. Azərbaycanın klassik ədəbi-mədəni irsinə həmişə milli təəssübkeşlik və vətənpərvərlik mövqeyindən yanaşan ümummilli lider Heydər Əliyev Nizami irsinə də xüsusi diqqət yetirib. Heydər Əliyevin təşəbbüsü ilə 1979-cu ildə qəbul olunmuş "Azərbaycanın böyük şairi və mütəfəkkiri Nizami Gəncəvinin irsinin öyrənilməsini, nəşrini və təbliğini daha da yaxşılaşdırmaq tədbirləri haqqında" qərar Nizami yaradıcılığının tədqiqi və təbliği üçün yeni perspektivlər açıb. Ölməz sənətkarın 1981-ci ildə Ulu Öndərin bilavasitə təşəbbüsü və iştirakı ilə keçirilən 840 illik yubiley mərasimləri ölkənin mədəni həyatının əlamətdar hadisəsinə çevrilib. 2011-ci ildə Nizami Gəncəvinin 870 illiyi dövlət səviyyəsində silsilə tədbirlərlə geniş qeyd edilib.

Goranboy Rayon İcra Hakimiyyətinin başçısı rayonun inzibati ərazi dairəsi üzrə nümayəndəlik və bələdiyyələrin Vətən müharibəsində iştirak etmiş əməkdaşları ilə görüşdü

Goranboy rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev rayonun inzibati ərazi dairəsi üzrə nümayəndəlik və bələdiyyələrin Vətən Müharibəsində iştirak etmiş əməkdaşları ilə görüşdü, onların ailə problemləri, sosial qayğıları və vəzifələrinin icrası sahəsində mövcud vəziyyətləri ilə maraqlandı.

QANLI YANVAR - 31 İL

1990-cı ilin 20 Yanvarı Azərbaycan xalqının tarixinin ən faciəli, qara səhifəsi, həm də qəhrəmanlıq, rəşadət səhifəsi kimi yaddaşlara həkk olunub. Ulu öndər Heydər Əliyev vaxtilə 20 Yanvar hadisələrini belə səciyyələndirərək böyük uzaqgörənliklə deyirdi ki, biz o günlərdən nə qədər çox uzaqlaşsaq, həmin günlərin Azərbaycan xalqının tarixində necə mühüm yer tutduğunu bir o qədər dərk edəcəyik və bəlkə də gələcək nəsillər buna daha doğru, daha düzgün qiymət verəcəklər. Ancaq bir şey həqiqətdir ki, 1990-cı ilin 20 Yanvarı Azərbaycan xalqının həyatında dönüş mərhələsi, dönüş nöqtəsi olub.

Həmin faciəli günlərdən 31 il ötür.

20 yanvar faciəsinin 31-ci ildönümü ilə bağlı, Goranboy rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev, rayonun digər rəhbər şəxsləri və ictimaiyyət fəalları Muzdurlar kəndində 20 yanvar Şəhidi İlqar Kərimovun məzarını ziyarət etdi. Sonra Goranboy şəhərində Şəhidlər Xatirə Kompleksində bütün Şəhidlərimizin xatirəsi anıldı, ruhlarına dualar oxundu. Bütün ölkə ərazisində olduğu kimi, Goranboyda da Şəhidlərimizin xatirəsi 1 dəqiqəlik sükutla yad edildi.

Şəhid məzarları ziyarət edilir

20 Yanvar şəhidi

Baxçakürd kəndi

Qaradağlı kəndi

Veyisli kəndi

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Ermənistanın işğalı altında olan torpaqlarımızı azad etmək üçün rəşadətli Azərbaycan Ordusunun sentyabrın 27-də Qarabağda başladığı genişmiqyaslı və uğurlu əks-hücum əməliyyatları uğurla başa çatdı və Azərbaycan tarixi Qələbəyə imza atdı. 44 gün ərzində rəşadətli Azərbaycan Ordusu sentyabrın 27-dən Ermənistanın hərbi təcavüzünə cavab olaraq, 30 ildən artıq işğal altında olan torpaqlarımızı azad etməklə yanaşı, düşmənin bu illər ərzində yaratdığı "yenilməzlik" mifologiyasını da darmadağın etdi. Şanlı Azərbaycan Ordusunun əsgər və zabitləri, hərbçiləri, igid Vətən oğulları döyüş meydanında göstərdikləri şücaətlə Prezident İlham Əliyevin "Qarabağ Azərbaycandır və nida işarəsi" devizini 44 günün ərzində reallığa çevirdilər. Qazandığımız böyük Qələbə ilə bütün dünyaya bir daha sübut etdik ki, doğurdan da "Qarabağ Azərbaycandır!". Azərbaycan qüdrətli dövlətdir və istənilən əməliyyatın öhdəsindən gəlməyə qadir olan güclü ordusu var.

Azərbaycanın ərazi bütövlüyü uğrunda öz canından keçmiş şəhidlərin ailələrinə o cümlədən müharibə əlillərinə dövlət tərəfindən böyük diqqət və qayğı göstərilir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin əsas istiqamətlərindən biri də məhz şəhid ailələrinin, müharibə veteranlarının, əlillərinin sosial müdafiəsinin gücləndirilməsi, onların problemlərinin vaxtında həllinə nail olunmasıdır. Bu istiqamətdə Goranboyda da bir sıra işlər həyata keçirilir.

Goranboy rayon İcra Hakimiyyətinin Başçısı Məhərrəm Quliyev də mütəmadi olaraq şəhid, qazi ailələrində olub, hər birinə xüsusi hörmətini, ehtiramını izhar edib, problemlərinin həllinə çalışır. Hər birinin dərdini özününküləşdirməyi bacarır.

M.Quliyev kəndlərdə şəhid məzarlarını ziyarət edib.

Şəhidlərimizin ruhuna dualar oxunub, əziz xatirələri dərin ehtiramla yad edilib. Şəhidlərimizin ailələrinə, yaxınlarına, valideynlərinə bir daha başsağlığı verilib, Vətən uğrunda canlarından keçən bütün şəhidlərimizin hər zaman qəlbimizdə əbədi yaşayacağı vurğulanıb.

Goranboy Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev bu gün fəxrlə, qürurla səsləndirdiyimiz şanlı Qələbəmizə, Zəfərimizə görə Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında hərb tariximizdə yeni səhifə açan Azərbaycan Ordusunun əsgər və zabitlərinə, hərbçilərimizə, qanları ilə tarix yazan şəhidlərimizə hər zaman minnətdar və borclu olduğumuzu bir daha dilə gətirib. Ölkə Prezidentinin şəhidlərimizin, yaralılarımızın, hərbçilərimizin ailələrinə olan diqqət və qayğısının bu gün hər birimiz üçün örnək, nümunə olduğunu diqqətə çatdırıb. İcra başçısı onlara göstərilən diqqətin, qayğının bundan sonra da olduğu kimi davam etdiriləcəyini bildirib.

Borsunlu kəndi

Faxralı kəndi

Rəhimli kəndi

Yolqullar kəndi

TARİX YAZAN OĞULLARIMIZ

Saleh Valeh oğlu Prezidentin Sərəncamına əsasən "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görüldü.
Təbrik edirik, cənab Mayor! 🇦🇿

Cəmi 44 gün ərzində dünyanın siyasi xəritəsində var olmaq haqqımızı təsdiqlədik. Sübut etdik ki, Bizimki olanın sahibiyik. Və bunu sözü imzası qədər kəsərli olan, Müstəqillik tariximizə Müzəffər sərkərdə kimi həkk olunmuş Prezidentimiz və ermənilərin canına vəlvələ salan Şanlı Ordumuzla nail olduq. Ordumuzun gücünü bütün dünya gördü, bütün dünya izlədi.

Mən isə bu yazımda Şanlı Ordumuzun bir qəhrəmanından söhbət açmaq istəyirəm. XTQ üzvü, "Vətən Müharibəsi Qəhrəmanı" taqım komandiri mayor Saleh Valeh oğlu Həsənov haqqında.

Saleh Həsənov 1986-cı ildə Goranboy rayonunun Qızılhacılı qəsəbəsində anadan olub. 1 saylı Qızılhacılı

qəsəbə tam orta məktəbində təhsil alıb. 2003-2007-ci illərdə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetini bitirib. 2007-ci ildə həqiqi hərbi xidmətə yollanıb. Hərbi xidmətə zabit kimi başlayan Saleh sonralar Xüsusi Təyinatlı Qüvvələrin əsgəri kimi Türkiyə, Rusiya, Pakistan, Çexiya, Almaniyada hərbi təhsil alaraq mükəmməl hərbi biliklərə yiyələnib. 2012-ci ildən aktiv hərbi əməliyyatlarda iştirak edir. 2016-cı il aprel döyüşlərinin iştirakçısı olub. 4 günlük müharibə zamanı Azərbaycan Silahlı Qüvvələrinin birləşmələrinin tərkibində yaşadığı Goranboy rayonu və Naftalan şəhərinə daim təhlükə yaradan Talış ətrafındakı yüksəkliklərin, Füzuli rayonu istiqamətində yerləşən Lələtəpə yüksəkliyinə nəzarətin ələ keçirilməsində bilavasitə iştirak edib.

Fərqli bir sahəni, Mədəniyyət və İncəsənət Universitetini bitiribsən, bəs nə əcəb sonunda oxuduğun deyil, hərb peşəsini seçdin?-sualına Saleh belə cavab verdi.

--Birinci Qarabağ Müharibəsi mənim uşaqlıq illərimin dövrüdur. Ailəmizdə həmişə bu müharibə haqqında söhbətlər gedirdi. Yaşadığım ərazinin döyüş bölgəsinə yaxın olması, yaxın qohumlarım və həmkəndlilərimin bu müharibədə iştirak etmələri, onların söhbətləri, oxuduğum orta məktəbin qəsəbəmizin qəhrəman şəhid oğlu Dilbazi Qasımovun adını daşıması məni daha çox cəlb edirdi. Və bununlada mən hərbini seçdim.

Müharibə başlayan ilk gündən döyüşə atılan Saleh Həsənovun rəşadətli Azərbaycan ordusunun qısa bir zamanda əldə etdiyi zəfərlərdə öz payı var. Ağır döyüşlərdə iştirak edən Saleh deyir ki bəli, Vətən müharibəsində qələbə qazandıq. İşğalçı Ermənistan ordusuna lazımı cavabı verdik. Mənfur düşməndən uzun illərin 28-30 ilin qisasını aldıq. Bu döyüşlərdə igid oğullarımız,döyüş yoldaşlarımız şəhid oldu, yaralandı, amma heç birimizdə ruh düşkünlüyü yaranmadı.

Murovdağ istiqamətində və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib, sücayət göstərən Saleh Valeh oğlu Həsənova Azərbaycanın ərazi bütövlüyünün bərpa

edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirən zaman göstərdiyi qəhrəmanlıq nümunəsinə görə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirən zamanı igidliyin və mərdliyin nümayiş etdirilməsinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 9 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən " Vətən Müharibəsi Qəhrəmanı " adı verildi. Bundan başqa O, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamına əsasən "Şuşanın azad olunmasına

görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

P.S. Xidmətdə olduğuna görə Salehlə ancaq telefon vasitəsiylə əlaqə saxlaya bildim. Ancaq mən qəhrəmanımızın döyüş yolu, döyüş yoldaşları, döyüş təəssüratları haqqında daha geniş yazını onunla görüşəndən sonra yazacam.

Xuraman ABBASOVA.

Sizi heç unuda bilərikmi?!.

(Şəhid ruhlarına elegiya)

Mənim şəhid qardaşlarım! Ucadan uca qəhrəmanlarım! Bir an belə düşünmədən, göz qırpmadan, ölümün üzünə dik baxıb "Vətən sağ olsun!" deyib döyüşə atılan nər oğullarım! Arzularını, xəyallarını, geridə qalanlarını düşünməyib canından can verən igid ərənlərim! Sizi heç unuda bilərikmi?!.

Arxanızca su atan, Sizi uğurlayan ağzı dualı anaların, xoşbəxtlikdən doyunca kam almayan gəlinlərin, görüşləri yarımçıq qalmış nişanlı qızların, sevgisini hələ dilə gətirə bilməyən, qəlbində gizlədən gözəllərin, atam qayıdacaq deyən körpələrin röyasına çevrilmiş Vətən aşiqləri! Saçları bir gecədə ağaran ataların vüqarlı qartalları! Sizi heç unuda bilərikmi?!.

Elə bir söz, elə bir cümlə tapıb yazmaq istəyirəm ki, Sizin Vətəni canınızdan uca tutan eşqinizi mədh etsin, igidliyinizin bənzərsiz rəngini çəkə bilsin. Elə söz axtarıram ki, Sizin şücayətinizdən, cəsarətinizdən gələcəyimizə nəfəs, səs verə bilsin. Istəyirəm nəsillərin yaddaşına, qanına hopsun, Vətən üçün döyüşüb, şərəflə ölmək eşqiniz! Siz əbədiyyətə yüksələn mələklərsiniz! Sücayətiniz sayəsində Tanrının sevgisini qazanmış müqəddəs ruhunuzla cənnətin əbədi sakinlərisiniz. Adınız nəsillərin ehtiramla baş əyəcəyi, tariximizin əbədi xatirə daşına həkk olunmuş səcdəgahıdır. Gələcək nəsillərimiz fəxrlə, qürurla anacaq və yaşadacaq sizi, mənim şəhid qəhrəmanlarım! Şəhadətinizin cəsurluq dastanınından qalaq-qalaq kitablar yazsaq, qəhrəmanlıq uverturamıza çevriləcək musiqilər bəstələsək belə, yenə də az olar.

Mənim Vətən sevdalılarım! Qanınız düşən yerlər gül-gülüstan olacaq, qanınızla suvardığınız torpaq sizin yolunuzu gedəcək minlərlə igid oğullar yetişdirəcək.

Mənim şəhid oğullarım! Canı ilə Vətənə can verən igidlərim! Tumurcuqlanan arzularını Vətən üçün şəhid verən aslan ürəkli əsgərlərim! Siz üçrəngli bayrağımızı düşmən caynağında olan torpaqlarımıza sancmaq üçün canınızı fəda etdiniz. Fəda etdiniz ki, xalqın tapdalanmış qürurunu, ləyaqətini ayağa qaldırıb, mənliyini xəcalətdən qurtarasınız. Ruhları sərgərdan düşmüş dədə-babaların məzarlarına azadlıq suyu səpib, təşnəsini söndürəsiniz.

Canını Vətənə qurban verib ruhu əbədiyyətə qədər yaşayacaq şəhidlərim! Qalibiyyət döyüşündə zəfər bayrağına çevrilən igidlərim! Sizi heç unuda bilərikmi?!.

Siz bizim milli mənlik şüurumuzda əbədi, silinməz və zəfər səhifəsi yazdınız. Bu Vətən sizin sayənizdə daha Böyük Vətən, daha Böyük Torpaq oldu. Bir ömür şükran borcumuz var sizlərə. Siz bizim Zəfər tariximizin şanlı səhifələrisiniz! Sizi heç unuda bilərikmi?!.

X. ABBASOVA.

Şəhid varsa Vətən var

Heç bir müharibə itkisiz olmur.

Bizim itkimiz olmadı, bizim Şəhidlərimiz oldu. Müharibə sözünün sadəcə 8 hərfdən ibarət olmadığını bildik. Fəryadlar,qurumayan göz yaşları, başsız qalan ailələr, neçə sönən ocaq, neçə əbədiyyətə qovuşan şəhid... Burda sən, mən ya da o yoxdur. Burda biz varıq. Onun şəhidi bizim şəhidimizdi. Bir evdə matəm varsa bütün ölkədə matəm var deməkdi.

Vətənimi bu qədər sevdiyimi bilməzdim bəlkədə müharibə olmasa idi.bu gün lazım olsa məndə keçərəm canımdan bir qarış torpağımız üçün. Mən də bir ovuc torpaq olub qarışaram torpağıma.

Hər gün onlarla şəhid verdi yurdumuz. Başın sağ olsun Vətən! Vətən uğruna canından keçən varsa Vətəndir! Bu gün şəhid varsa Vətən var! Bu gün Vətən varsa biz varıq.

Bizdə ölən olmadı. Bizdə şəhidlər oldu. Əlinə silah alıb səngərdə döyüşməyi seçdik biz. Ən təmiz, ən doğru olan yolu seçdik yol kimi özümüzə. Uşağa, qadına, dinc əhaliyə toxunmadan aldıq əmanətimizi geri.

Qarabağ indi yox, həmişə Azərbaycan idi.

Məlahət İSMAYILOVA,
Goranboy şəhər sakini.

Xarı bülbül

Qarabağın allı-güllü donusan
Şəhidlərin sən müqəddəs qanısan
Şəhidlərin qəlbləri tanısan
Hər şəhidin qəbri üstə bitərsən.

Xarı bülbül igidlərin gülləndi
Analar bir başqa cürə dilləndi
Dedilər ki,oğul, öncə Vətəndi
Anaların ağ saçından öpərsən.

Şuşamızın ətəyindən əl eylə,
Hər bir yana qucaq açıb gəl eylə
Gələnməsəm mən demərəm gileylə
Ətrin ilə Murovumdan ötərsən.

Lütfü HALAYOĞLU,
Zeyvə kəndi.

Əhalinin vaksinasiyasına başlandı

Koronovirus (COVID-19) infeksiyasının yayılmasının qarşısının alınması ilə bağlı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən və Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi ilə ölkəmizdə 2021-ci ilin yanvarın 19-dan əhalinin vaksinləşmə prosesinə başlanılıb.

Respublikamızın hər yerində olduğu kimi, Goranboyda da Rayon Mərkəzi Xəstəxanasında əhalinin COVID-19-a qarşı vaksinləşmə prosesinə start verilib.

Yanvarın 20-dən başlayan vaksinləşmə prosesinin yüksək mütəşəkkilliklə keçirilməsi üçün bütün zəruri tədbirlər görülüb TƏBİB-in təlimatlarına uyğun zəruri şərait yaradılıb.

İlkin mərhələdə risk qrupuna daxil olan tibb işçiləri, eləcə də yaşı 50-dən yuxarı olan rayon sakinləri könüllülük əsasında peyvəndlənəcəklər.

Məlumat üçün onu da qeyd edək ki, Nazirlər Kabinetinin 2021-ci il 16 yanvar tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün Vaksinasiya Strategiyası" təsdiq edilib. Strategiyaya uyğun olaraq vaksinasiyanın birinci mərhələsində səhiyyə işçiləri, 65 yaşdan yuxarı şəxslər və hüquq-mühafizə orqanları tərəfindən əks-epidemik tədbirlərə cəlb olunan heyət peyvəndlənəcək. Strategiyanın əsas məqsədi ölkədə yayılmış koronavirus pandemiyasının qarşısının alınmasına, virusa yoluxma və ölüm səviyyəsinin aşağı salınmasına nail olmaqdır.

Vaksinin əhəmiyyəti immuniteti gücləndirmək yolu ilə xəstəlikdən qorunmaq, infeksiyanın ötürülməsini məhdudlaşdırmaq, ölüm halının qarşısını almaq və nəticədə səhiyyə sisteminə düşən yükü azaltmaqdan ibarətdir.

Ürəklərdə əbədi yaşayan el ağsaqqalı

Taryel müəllim haqqında danışmaq mənim üçün həm çətindir, həm də şərəflidir. Çətindir ona görə ki, onun ölümü ilə barışmaq asan deyil, şərəflidir ona görə ki, belə müdrik bir ağsaqqal haqqında xatirələri bölüşürəm.

Taryel müəllim Goranboy rayon Ağsaqqallar Şurasının sədri olmuşdur. Əməkdar müəllim adına layiq görülmüşdür. Tərəqqi medalı ilə təltif olunmuşdur.

Biz isə ona Hacı Taryel deyə müraciət edirdik. Taryel müəllim haca gedib bu adı qazanmışdı.

Taryel müəllim bir Hacı kimi xeyli xeyirxah işlər görmüşdü. Kəndə yolun çəkilməsində, hər bir evə bulaq suyunun çəkilməsində, Fövqəladə Hallar Nazirliyinə müraciətindən sonra xeyli sayda kənd cavanlarının işlə

təmin olunmasında onun əməyi və xidməti olmuşdur. O, özü üçün yox, eli üçün çalışırdı.

Heç bir rayon tədbiri onsuz keçməzdi. İndi tədbirlərdə, yığıncaqlarda gözümüz onu axtarır.

Taryel müəllimin dörd övladı var. Dördü də ali təhsillidir. Onlar da ataları kimi dövlətinə, elinə, obasına xeyirli övladlardır.

Taryel müəllimin dəfn mərasimində rayon İcra Hakimiyyətinin başçısı, rayonun digər rəhbər şəxsləri, ağsaqqallar və ziyalılar, rayon ictimaiyyətinin fəalları iştirak etmişdi.

İnsan var evdən gedir, insan var eldən gedir. Taryel müəllim eldən getdi.

Allah sənə rəhmət eləsin Hacı Taryel.

Goranboy rayon İcra Hakimiyyəti, idarə, müəssisə və təşkilat rəhbərləri və rayon ictimaiyyəti

Goranboy rayon İcra Hakimiyyəti rayon Təhsil şöbəsi ilə birgə "Şəhidlərimizi və Qazilərimizi tanıyaq" layihəsi əsasında tədbirlərini davam etdirir

Goranboy rayon İcra Hakimiyyəti rayon Təhsil şöbəsi ilə birgə "Şəhidlərimizi və Qazilərimizi tanıyaq" layihəsi əsasında tədbirlərini davam etdirir.

Layihənin məqsədi yeni nəslin vətənpərvərlik ruhunda tərbiyə olunmasıdır. Bu məqsədlə, Şəhid və Qazilərimizin qəhrəmanlıq yolu onların ailə üzvləri və müəllimlərinin fikir və xatirələrindən öyrənilərək şagird və yeniyetmələrə aşılanır.

Layihə çərçivəsində Səfikürd kəndində Vətən Müharibəsi şəhidi Rəsulov Sahil Sərvan oğlunun ailəsi ilə görüş keçirilmişdir.

Koronavirusa qarşı mübarizə tədbirləri

Bildiyimiz kimi 2019-cu ilin dekabr ayının ortalarında, Çinin mərkəzi Hubey əyalətinin Uhan şəhərində yerli Huanan ət və dəniz məhsulları bazarı ilə əlaqəli yerli sakinlərdə naməlum mənşəli pnevmoniya xəstəliyinin ilk aşkar olunması ilə naməlum mənşəli keçiriliciyi yüksək olan yeni növ virusun yayılması haqqında məlumatlar paylaşılmağa başladı.

31 dekabr 2019-cu ildə Çin hakimiyyəti naməlum pnevmoniyanın başlaması barədə Ümumdünya Səhiyyə Təşkilatına məlumat verdi. Sonradan, Çin alimləri yeni koronavirus - COVİD-19 infeksiyasının genetik ardıcıllığını təyin etdilər. Aparılmış tədqiqatlarla müəyyən edildi ki, virus, şiddətli kəskin tənəffüs sindromuna səbəb olan SARS-CoV virusuna ən azı 70% genetik ardıcıllıqla bənzəyir. Yeni koronavirusun inkubasiya dövrü 2 gündən 10 günə qədər davam edir və son məlumatlara görə, xəstəlik simptomların başlamazdan əvvəl yoluxucu olur. Bununla belə nəticəyə gəlinir ki, virus daşıyıcısı olan xəstə özündə hər hansı əlamət hiss etmədən həmin xəstələyinin daşıyıcısı olur və ətrafındakı şəxlsərə keçirir. 22 yanvar 2020-ci il tarixindən etibarən Uhanda karantin rejimi tətbiq edilməyə başlandı. 24 yanvar tarixindən etibarən Uhana bitişik olan şəhər rayonlarına da karantin tətbiq edildi.

30 yanvar 2020-ci il tarixdə Ümumdünya Səhiyyə Təşkilatının Fövqəladə Komitəsinin iclasında, yeni koronavirusun yayılması beynəlxalq narahatlıq yaradan ictimai səhiyyə təcili vəziyyəti kimi qəbul edildi. Ümumdünya Səhiyyə Təşkilatı COVID-19 infenksiyasını 11 mart 2020-ci il tarixdə pandemiya elan etmişdir.

Azərbaycan Respublikası ərazisində rəsmi olaraq ilk Covid 19 virusuna yoluxmuş xəstə 27 fevral 2020-ci il tarixdə aşkarlanmışdır. Azərbaycan dövlətinin müvafiq strukturları tərəfindən dərhal mövcud vəziyyət səhiyyə təşkilatları ilə birlikdə qiymətləndirilərək dərhal koronavirus pandemiyasının səbəb ola biləcəyi təhlükənin qarşısını almaq, profilaktik və təxirəsalınmaz tədbirlərin görülməsi üçün Nazirlər Kabineti nəzdində operativ qərargah yaradıldı. Pandemiyanın ölkəmizdəki inkişaf dinamikası nəzərə alınaraq xüsusi karantin rejimi tədbiq edildi. Bütün sahələr üzrə xəstəliyin daha çox yayılmasının qarşısının alınmağa yönələn adekvat və təsirli tədbirlər həyata keçirilməyə başladı. Xüsusilə karantin rejimi ilə bağlı Dövlət başçısı cənab İlham Əliyev və Birinci Vitse Prezident Mehriban xanım Əliyeva tərəfindən iqdisadi və sosial sahələrdə zəruri tədbirlərin görülməsi barədə verilmiş göstərişlər nəticəsində ciddi zərər görən sahə və ya şəxslər olmamışdır.

Həmçinin hüquq mühafizə orqanlarının işinin təşkili ilə bağlı müvafiq qanunvericilik aktlarına əlavə və dəytişikliklər edilmişdir. Belə ki, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə, o cümlədə Cinayət Məcəlləsinə edilmiş əlavə və dəyişikliklərdən sonra hazırda İnzibati Xətalar Məcəlləsinin 211-ci maddəsinin tələblərinə əsasən sanitariya-gigyena və epidemiya əleyhinə rejimlərin pozulmasına görə fiziki, hüquqi və və vəzifəli şəxslərin müxtəlif məbləğlərdə cərimə edilməsi, həmçinin Azərbaycan Respublikası Cinayət Məcəlləsinə yeni əlavə edilmiş 139-1-ci maddəsinə əsasən epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və ya karantin rejimlərinin pozulması xəstəliklərin yayılmasına səbəb olduqda və ya xəstəliklərin yayılması üçün real təhlükə yaratdıqda iki min beş yüz manatdan beş min manatadək miqdarda cərimə və ya üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Eyni əməllər ehtiyatsızlıqdan insan ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda üç ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Goranboy rayon Prokurorluğu və rayon Polis şöbəsinin əməkdaşları tərəfindən rayon İcra Hakimiyyətinin müvafiq əməkdaşlarının işitrakı ilə həyata keçirilmiş tədbirlər nəticəsində hazıradək karantin qaydalarını pozan yüzlərlə fiziki və hüquqi şəxslər barəsində inzibati protokollar tərtib edilmiş, ondan çox COVİD-19 xəstəliyinə tutulmuş şəxsin barəsində isə karantin rejimi pozaraq digər şəxslərin həmin xəstəliyə yoluxmasına səbəb olmaları səbəbindən cinayət işləri başlanaraq ibtidai istintaq aparılır.

Hüquq mühafizə və digər aidiyyəti orqanlar tərəfindən görülmüş effektiv tədbirlər nəticəsində qeyd olunan xəstəliyin ölkə ərazisində yayılmasının qarşısı alınmaqdadır.

Lakin, vətəndaşlarımız qanunvericiliyin tələblərindən çəkindikləri üçün deyil, özlərini və ətrafındakıları qorumaq məqsədilə Operativ Qərargahın tövsiyyə və tələblərinə dönmədən əməl etməlidirlər.

Babək ƏLİYEV,
Goranboy rayon prokurorluğunun böyük müstəntiqi

ABUNƏ - 2021

2021-Cİ İLİN BİRİNCİ YARIMİLLİYİ ÜÇÜN

MÜBARİZ

qəzetinə abunə yazılışı davam edir

ƏZİZ OXUCU, inanırıq ki, sən "Mubariz" qəzetinə biganə qalmayacaq, bu qəzetin abunəçisi olacaqsan. Axı rayonda yeganə mətbu orqandır ki, sənə tanış olan insanlardan, onların uğurlarından, rayonda olan yeniliklərdən, abadlıq və quruculuq işlərindən səni agah edir, yaşadığın rayonun qayğı və problemlərindən xəbərdar edir.

Hər sayı bir tarix olan "Mübariz" qəzetinə, doğma qəzetinizə abunə olun.

"Mübariz"in abunəçisi olmaq üçün redaksiyamıza müraciət edin.

Qəzetimizə həm nəqd, həm də köçürmə yolu ilə abunə yazılmaq olar.

Bildiririk ki, "Mübariz" qəzeti bank hesablarını Kapital Bank ASC-nin Goranboy filialında aparılır.

Kapital Bank ASC-nin Goranboy filialı
Kod 200509
VÖEN 9900003611
Müxbir hesab:AZ 37 NABZ 01350100000000001944
SWİFT BİK AİİBAZ 2 x
"Mubariz" qəzeti redaksiyası
VÖEN 6100034821
Hesab N-si 38070019445000226150

2020-ci ilin yanvar-sentyabr aylarında istehlak bazarında qiymətlərin dəyişməsi haqqında

Goranboy rayonu üzrə istehlak mallarının qiymətləri və xidmət tarifləri 2020-ci ilin yanvar-sentyabr aylarının əvvəlki ilin yanvar-sentyabr aylarına nisbətən 2,9 faiz bahalaşmışdır.

İstehlak qiymətlərinin məcmu və qruplar üzrə indekslərinin yekun göstəriciləri

	2019-cu ilin əvvəlki ilə nisbətən, faizlə	2020-ci ilin yanvar-sentyabr ayları əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə
Cəmi məhsullar və xidmətlər	102,9	102,9
Ərzaq məhsulları, içkilər və tütün məmulatı	104,3	105,2
Qeyri-ərzaq məhsulları	101,3	101,3
Xidmətlər	102,3	101,1

2020-ci ilin yanvar-sentyabr ayları ərzində "Ərzaq məhsulları, içkilər və tütün məmulatı" qrupu məhsullarının qiymətləri əvvəlki ilin müvafiq dövrünə nisbətən 5,2 faiz bahalaşmışdır. 2020-ci ilin yanvar-sentyabr aylarının 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə qeyri-ərzaq məhsullarının qiymətləri 1,3 faiz artmışdır.2020-ci ilin yanvar-sentyabr ayları ərzində Goranboy rayonu üzrə əhaliyə göstərilmiş ödənişli xidmətlərin qiymətlərində də 1,1 faiz bahalaşma müşahidə olunmuşdur.

GORANBOY RAYON STATİSTİKA İDARƏSİ

VƏTƏNDAŞLARIN NƏZƏRİNƏ!

"Mübariz" qəzeti redaksiyası bildirir ki, 2021-ci ildə qəzetimizdə dərc ediləcək elanların qiyməti aşağıdakı kimidir.

1. Sənədlərin itməsi (etibarsız sayılır) – 10 manat
2. Ad günlərinin təbriki (şəkillə) – 20 manat
3. Kotirovka sorğuları – 20 manat
4. Nekroloq – 20 manat
5. Başsağlığı – 10 manat

Qeyd: digər reklam, elan və anons xarakterli sifarişlərin qiyməti isə səhifədə tutacağı həcmə və mahiyyətinə görə hesablanır.

REDAKTOR
Xuraman Vaqif qızı

Ünvanımız:2200 Goranboy şəhəri, İlham İsmayılov küçəsi, 31.
mubariz.goranboy@gmail.com
(022) 24-5-19-33
Mob: 051 443 23 60

Qəzet Mingəçevir şəhər Poliqrafiya müəssisəsində ofset üsulu ilə çap olunmuşdur.
Tiraj 300

Təsisçilər Goranboy rayon İcra hakimiyyəti və redaksiyanın jurnalist kollektivi

"MÜBARİZ"
Sifariş 34
Qeydiyyat nömrəsi 490